


## Mərkəzi Aran iqtisadi rayonu

Mərkəzi Aran iqtisadi rayonu, Azərbaycan Prezidentinin 7 iyul 2021-ci il tarixli "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərmanı ilə yaradılmışdır. İqtisadi rayonunun tərkibinə Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax, Zərdab inzibati rayonları və Mingəçevir şəhəri daxildir. İqtisadi rayonun ümumi sahəsi 6,619 kv. km, əhalisi 792,027 nəfər olmaqla, ümumi ölkə ərazisinin 7,6%-ni, əhalisinin isə 7,8%-ni təşkil edir.

**Cədvəl 1**

**Mərkəzi Aran iqtisadi rayonunun inzibati ərazi bölgüsü**

| İnzibati ərazi üzrə rayonların adları | Şəhər | Qəsəbə | Kənd | Kənd inzibati ərazi dairələri |
|---|---|---|---|---|
| Mingəçevir | 1 | - | - | - |
| Yevlax | 1 | 3 | 46 | 8 |
| Ağdaş | | 2 | 71 | 41 |
| Göyçay | | | 55 | 25 |
| Ucar | | | 29 | 15 |
| Kürdəmir | | 2 | 59 | 21 |
| Zərdab | | 1 | 40 | 26 |

Mərkəzi Aran iqtisadi rayonu Kür-Araz ovalığının qərb hissəsini əhatə edir. İqtisadi rayonun iqlimi termik ehtiyatlarının bolluğu ilə səciyyələnir ki, bu da əlverişli rütubət və düzgün aqrotexniki tədbirlərin keçirliməsi nəticəsində yüksək məhsuldarlığa nail olmağa imkan verir. Ərazidə fəal temperatur $4000^0$ – $4700^0$ arasında tərəddüd edir. Ən yüksək orta illik temperatur Şirvan və Mingəçevir Su anbarı ətrafında müşahidə edilir. Ərazidəki orta illik temperatur $14^0$ -$14{,}5^0$ S olub, pambıq kimi çox istilik tələb edən bitkinin becərilməsinə və qış otlaqlarının geniş yayılmasına imkan verir. İqtisadi rayonun ərazisi üzrə yağıntılar qeyri-bərabər paylanmışdır.

İqtisadi rayonun böyük hissəsində yağıntının az düşməsi geniş suvarma proqramının həyata keçirilməsini tələb edir. Həmçinin iqtisadi ərazidə iqlimin digər səciyyəvi xüsusiyyətlərindən biri şaxtasız dövrün uzun müddətli olmasıdır; qış mülayim, yay ayları isə isti və quraq keçir. Ümumiyyətlə, iqtisadi rayonun iqlim şəraiti özünün əlverişliliyi ilə seçilir.

Mərkəzi Aran iqtisadi rayonunun düzən relyefi, bol aqroiqlim ehtiyatları, su arteriyaları, suvarma şəraitində məhsuldar olan torpaqlar kənd təsərrüfatı işləri üçün əlverişli təbii şərait yaradır. Mərkəzi Aran iqtisadi rayonunun əsas yeraltı sərvətlərinə neft, təbii qaz, yodlu-bromlu mədən suları, müxtəlif tikinti materialları (əhəngdaşı, qum-çınqıl) aiddir. Ağdaş və Zərdabda əsasən gil yataqları, Mingəçevirdə qum çınqıl karxanaları mövcuddur. Təbii ehtiyatların potensial resursları arasında arid yarımsəhra bitkiləri də fərqlənir. Kür çayının sahilləri boyu yeraltı suların səthə yaxın olduğu ərazilərdə ensiz zolaq şəklində Tuqay meşələri yerləşir. Şirvan düzünün şimalında yerləşən Ağdaş, Göyçay, Kürdəmir və Yevlax rayonlarında ardıc və saqqızağacdan ibarət seyrək meşələr və kolluqlar zonası yerləşir.

Mərkəzi Aran iqtisadi rayonu inkişaf etmiş sənaye sahələrinə malikdir. İqtisadi rayonun tərkibinə iki respublika tabeli şəhər – Mingəçevir və Yevlax daxildir. Elektroenergetika, kimya, maşınqayırma, yüngül və yeyinti, tikinti materialları istehsalı iqtisadi rayon üzrə əsas sənaye sahələridir. Sənayenin inkişafı iqtisadi rayonda əhalinin məskunlamasına öz təsirini göstrəmişdir.

**Mərkəzi Aran iqtisadi rayonu üzrə əhalinin sayı**

**(01.01.2024-cü il vəziyyətinə görə)**

| Əhalinin (min nəfərlə) ümumi sayı | | Kişi % | Qadın % |
|---|---|---|---|
| Mingəçevir | 102,8 | 49,2 | 53,6 |
| Yevlax | 129,2 | 63,1 | 66,1 |
| Ağdaş | 107,1 | 53,5 | 53,6 |
| Göyçay | 118,6 | 59,4 | 59,2 |
| Ucar | 85,0 | 42,0 | 43,0 |

| | | | |
|---|---|---|---|
| Kürdəmir | 118,4 | 59,3 | 59,1 |
| Zərdab | 59,4 | 29,7 | 29,7 |

Qeyd edək ki, cədvəl Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin əhalinin siyahıyalınması üzrə məlumatları əsasında tərtib olunmuşdur.

Regionun sənayesi, əsasən onun şimal-qərbində Mingəçevir və Yevlax şəhərlərində cəmlənmişdir. Mərkəzi Aran iqtisadi rayonunun energetika sənayesi mövcud istilik və hidroenerji ehtiyatlarının mənimsənilməsi əsasında yaranaraq, respublikanın energetika sənayesində mühüm yer tutur. Kür çayının hidroenerji ehtiyatının mənimsənilməsi rayonda sənaye sahələrinin və suvarma əkinçiliyinin geniş inkişafına imkan yaratmışdır. Buna görə də, energetika sənayesi rayonun əsas aparıcı sənaye sahələrindən biri olmuşdur.

Mingəçevir ərazisində qədim yaşayış izləri tarixin ən dərin qərinələrinə gedib çıxsa da, burada müasir şəhərin meydana gəlməsi sovet sənayeləşməsi ilə əlaqədar mümkün olmuşdur. Respublikanın ucuz elektrik enerjisi ilə təminatı, kənd təsərrüfatını, taxılçılığı, pambıqçılığı inkişaf etdirmək, Kür ətrafında baş verən daşqınların qarşısını almaq, malyariya əleyhinə tədbirlər həyata keçirmək məqsədilə tikiləcək Mingəçevir SES-in xalq təsərrüfatının bir çox sahələrinin inkişafında mühüm rol oynayacağı əvvəlcədən bəlli idi. Mingəçevir SES -in inşası Mingəçevir şəhərinin yaranmasına səbəb oldu. Azərbaycan SSR Ali Sovetinin Rəyasət heyəti 1948-ci ilin noyabrın 11-də Mingəçevirə şəhər statusu verilməsi haqqında qərar çıxardı. Bu qərara əsasən, SES qəsəbə soveti ləğv edilib onun yerinə Mingəçevir Şəhər Soveti yaradıldı. Beləliklə, 11 noyabr 1948-ci il tarixdə respublikanın sənaye həyatında mühüm rol oynayacaq Mingəçevir şəhər statusu aldı. Mingəçevir (1953-cü il) və Varvara (1956-cı il) SES-in inşasının başa çatdırılması burada energetika sənayesinin əsasını qoymuşdur.

Mingəçevir su təsərrüfatı kompleksi tam istifadəyə verildikdən sonra, onuntikintisinə sərf olunan kapital 5 il müddətinə ödənilmişdir. Mingəçevir şəhəri və ona yaxın Yevlax şəhəri birlikdə Mingəçevir-Yevlax sənaye qovşağını yaratmışdır. Bundan başqa, Mingəçevir su anbarının yaradılması nəticəsində Kür-Araz ovalığında suvarma əkinçiliyi güclü surətdə inkişaf etmiş və Kür çayının tənzimlənməsi nəticəsində mənsəbdən 600 km məsafəyə qədər il boyu gəmilərin sərbəst hərəkətinə imkan yaratmışdır. Kür çayının suyunun tənzimlənməsi çayın sahilində olan axmazların və bataqlıqların qurudulmasına imkan vermişdir ki, bunun da nəticəsində kənd təsərrüfatı dövriyyəsinə çoxlu torpaq sahəsi daxil edilmişdir. Respublikanın digər istehsal rayonlarında olduğu kimi, Mərkəzi Aran iqtisadi rayonunda avtomobil təmiri müəssisələri geniş yayılmışdır İqtisadi rayonunun maşınqayırma kompleksinə daxil olan sahələrdən biri də yol və kommunal maşınqayırma müəssisələridir. Bunlar Mingəçevirdə təcrübə-eksperimental “Yoltexnika” zavodu və “Mingəçeviryolmaş” zavodlarıdır. Həmçinin şəhərdə kimya profilli müəssisələr də fəaliyyət göstərir. Hazırda respublikanın sərbəst balansında olan müəssisələrinin təqribən 5%-i Mingəçevir sənaye

qovşağında cəmləşmişdir. Bütün bunlar sənaye qovşağının sürətlə inkişaf etməsinə səbəb olmuş və onun sənaye qovşağı üçün optimal ölçüsünü müəyyən edən əsas amil olmuşdur. Mingəçevirin ilk sənaye müəssisəsi olan SES respublikanın iqtisadi inkişafı üçün mühüm rol oynamış, kənd təsərrüfatının yüksəlişinin bünövrəsini qoymuşdu. 1957-ci ildə Varvara SES-in istifadəyə verilməsi Mingəçevir SES silsiləsinin istehsal gücünü daha da artırmışdı.

Azərbaycan Dövlət Rayon Elektrik Stansiyası Cənubi Qafqazın ən böyük enerji müəssisəsidir. Əslində Azərbaycan DRES-in tikintisi ilə bağlı konkret təkliflər Azərbaycan SSR Nazirlər Sovetinin 3 fevral 1958-ci il tarixli qərarında öz əksini tapmışdı. Qərar qəbul olunsa da, 12 il müddətində kağız üzərində qalmışdı. Yalnız 1970-ci illərdə respublikanın enerji təchizatının gücləndiriməsi istiqamətində həyata keçirilən layihələr zamanı bu qərar gerçəkləşdirildi. Mingəçevirdə su anbarının, SES-dən çəkilən elektrik xətlərinin, Yuxarı Qarabağ kanalının ərazidə mövcudluğu DRES layihəsinin reallaşdırılması üçün vacib amillərdən idi. Bu müəssisənin Azərbaycanda tikilməsi Sovet rəhbərliyində heç də birmənalı qarşılanmamışdı. Stansiyanın Gürcüstan və ya Özbəkistan SSR-də tikilməsinin tərəfdarları daha çox olmuşdu. Lakin Azərbaycan SSR-nin rəhbəri H.Əliyevin diplomatik səyləri, İttifaq hakimiyyətinin ən üst mərtəbələrində məharətli taktiki gedişləri sözügedən çevrələrin maneələrinin aşılmasını və bu layihənin baş tutmasını mümkün etdi. DRES öz layihəsinin orijinallığına və bir çox texniki, texnoloji xüsusiyyətlərinə görə keçmiş ittifaqda əvvəlki İstilik Elektrik Stansiyalarından fərqlənən bir layihə olmuşdu. DRES-in tikilməsi respublikada bu sahə üzrə yerli energetik, mühəndis, inşaatçı heyət üçün böyük təcrübə məktəbi oldu. Eyni zamanda bu sahə üzrə milli mütəxəssislərin ehtiyat fondunun yaradılmasında mühüm rol oynadı. DRES-in sonuncu 8-ci bloku 1988-ci ildə istifadəyə verilmişdir. 2018-ci ildə DRES-də əsaslı təmir işləri aparılmış 8 blok tamamilə yenidən qurulmuş bərpa-yenidənqurma işləri nəticəsində təqribən 600 meqavatdan çox itirilmiş güc bərpa edildi. Mingəçevir şəhərinin iki elektrik stansiyasının istehsal etdiyi enerji ölkədə istehsal edilən enerjinin təxminən 60 faizi həcmindədir. Mingəçevirdə enerji istehsalı üzrə ixtisaslaşmanın davamı olaraq 13 fevral 2023-cü il tarixində “Gülüstan” sarayında ölkə prezidenti İ.Əliyevin iştirakı ilə müstəqillik dövrünün 1280 MVt gücündə ən böyük İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirildi. Yeni stansiya respublikanın enerji təhlükəsizliyi üçün böyük imkanlar qazandırmış olacaq.

Yevlax rayonu 1935-ci ilin 20 fevral tarixində təşkil edilmişdir. 1939-cu ilin fevral ayının 1-də Azərbaycan SSR Ali Sovetinin qərarına əsasən Yevlaxda Şəhər Soveti yaradılmaqla, Yevlaxa şəhər adı verilmişdir. 6 yanvar 1965-ci il tarixindən Yevlax respublika tabeli şəhər statusu aldı. Yevlax böyük sənaye şəhəri olmaqla bərabər eyni zamanda respublikanın iri kənd təsərrüfatı rayonlarından biridir. Aparılmış torpaq islahatından sonra rayonun istifadəsində olan 141743 hektar torpaq sahəsinin 60450 hektarı Dövlət mülkiyyətinə, 47966 hektarı Bələdiyyə mülkiyyətinə, 33453 hektarı isə xüsusi mülkiyyətə verilmişdir. Xüsusi mülkiyyətə verilmiş torpaq sahəsinin 30228 hektarı pay torpağı 3225 hektarı isə həyətyanı torpaq sahələridir. Rayon üzrə 81238 hektar kənd təsərrüfatına yararlı

torpaq sahəsi vardır ki, bunun da 31416 hektarı əkin dövriyyəsində olan, 38256 hektarı isə suvarılan torpaqlardır. Rayonda kənd təsərrüfatı sahəsində 68 kəndli fermer təsərrüfatı, 5 kooperativ, 8 kiçik müəssisə, Aqrokimya laboratoriyası, Yuxarı Qarabağ kanalı istismar idarəsi, Yuxarı Şirvan kanalı istismar idarəsi, Yuxarı Şirvan irriqasiya meşə təsərrüfatı idarəsi, Suvarma sistemləri idarəsi, 8 Suvarma Assosasiyası fəaliyyət göstərir. Bundan əlavə Regional «Aqroservis» və Təchizat bazası «Aqrotexnika» Məhdud məsuliyyətli cəmiyyət kənd təsərrüfatına xidmət edir. Rayonun torpaqlarının əsas suvarma mənbəyi Kür çayı, Yuxarı Qarabağ kanalı, Yuxarı Şirvan kanalı, qismən Tər-tər və Əlican çaylarının su hövzələri və subartezian quyularıdır. İqtisadiyyat nazirinin 25 avqust 2020-ci il tarixli F-117 nömrəli əmrinə əsasən "Orta fermer təsərrüfatının aqrar-sənaye klasterlərinə inteqrasiyası" layihəsi çərçivəsində Yevlax rayonu ərazisində pilot aqroparkın yaradılması ilə əlaqədar işlərə başlanılmışdır. Yevlax Pilot Aqroparkı ölkə ərazisində kiçik və orta fermerlərin cəlb olunması ilə yaradılan ilk aqroparkdır. Yevlax Pilot Aqroparkın rezidenti "İSFA" MMC ilk dəfə olaraq 2022-ci ilin oktyabrında Qırğızıstana ting məhsulları ixrac etmişdir.

"Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqram"larının çərçivəsində Yevlaxda bir çox layihələr icra olunmuşdur. Onlar yaşayış binalarının, infrastruktur, təhsil, səhiyyə, mədəniyyət obyektlərinin, idman qurğularının tikintisi və təmirini, abadlıq, yenidənqurma işlərinin aparılmasını, xiyaban və parkların salınmasını, istehsalat təyinatlı obyektlərin inşasını əhatə edir. Həmçinin Yevlaxda "Dan" kərpic zavodu, "Lalə-Tekstil" MMC-nin tikiş fabriki, "Arfa" mebel fabriki, "Gilan-Dəri", beton istehsalı, asfalt zavodları, makaron, konserv və çörək sexləri işə düşmüşdür.

Ağdaş rayonu 1930 -cu ildə yaradılmışdır. Ağdaş rayonu ərazisindəki torpaq səthinin əsasən düzənlik tipli, torpaqların boz-çəmən forması, mülayim iqlim şəraitinin olması, eyni zamanda rayonun Kür çayının sol sahilində yerləşməsi, rayon iqtisadiyyatının əsasını təşkil edən pambıqçılığın sürətlə inkişaf etməsinə səbəb olmuşdur. Ümumi sahəsi 102 min 305 hektar olan Ağdaş rayonun 34 mindən çoxu əkin yerləridir. Ağdaş texniki bitkilərin, o cümlədən çəltik, biyan kökü, baramaçılıq və kənd təsərrüfatı məhsulları istehsalı üzrə ixtisaslaşıb.

Respublikada həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası bölgələrin daha da gözəlləşməsi, regionların regionların simasına yeni elementlərin daxil olması ilə müşayiət edilir. Son illərdə Ağdaş rayonunda Qolqəti-Dəhnəxəlil-Qoşaqovaq-Ərəbocağı avtomobil yolu, həmçinin Qobuüstü-Yuxarı Nemətabad-Hacılar-Aşağı Nemətabad-Yenikənd-Qəribli marşrutu üzrə 36 km uzunluğa malik bir neçə istiqamət üzrə avtomobil yolları əsaslı şəkildə 2 hərəkət zolaqlı olmaqla IV texniki dərəcəyə uyğun olaraq yenidən qurulmuşdu. Rayonda kənd yollarının tikintisi ilbəil daha da genişlənir. Bu, həm sosial, həm də iqtisadi layihələrdir. Həmin layihələrin icrası nəticəsində on minlərlə yeni iş yeri açılır. Təzə kənd yolları yerlərdə aqrar bölmənin əsaslı şəkildə inkişafına təkan verir, kənd təsərrüfatı məhsullarının bazarlara rahat və operativ şəkildə çatdırılmasına əlverişli şərait yaradır.

Biyan Sənaye Parkının 2019-cu ildə Ağdaşda istifadəyə verilməsi bölgə üçün iqtisadi baxımdan önəmli bir təşəbbüs oldu. Ən müasir standartlara cavab verən avadanlıqlarla təchiz olunmuş

müəssisə Azərbaycanı dünya biyan kökü bazarında yüksək mövqeyə çıxarmaq, bu sahədə mövcud iqtisadi potensialı dövlətin real gəlir mənbəyinə çevirmək istiqamətində fəaliyyətini uğurla davam etdirir.

Ucar rayonu 24 yanvar 1939-cu ildə təşkil olunmuşdur. Rayonun coğrafi mövqeyi olduqca əlverişlidir. Bakı-Tbilisi dəmir yolunun və magistral avtomobil yolunun Ucar rayonundan keçməsi, habelə Qədim İpək yolunun bərpa olunmaqla Ucardan keçməsi yerləşdiyi yerin iqtisadi əhəmiyyətini olduqca artırır. Ucar rayonu ölkənin mühüm kənd təsərrüfatı rayonlarından biridir. Rayonun iqtisadiyyatında heyvandarlıq, taxılçılıq, tərəvəzçilik aparıcı rol oynayır.

Zərdab rayonu 1935-ci ildə təşkil olunmuş, 1 yanvar 1963-cü il tarixdə ləğv edilərək Ucar rayonu ilə birləşdirilmiş və 6 yanvar 1965-ci il tarixdən Zərdabın müstəqil rayon statusu bərpa edilmişdir. Zərdab rayonu Şirvan düzündə yerləşir. Rayonun səthi düzənlikdir, ərazisinin çox hissəsi okean səviyyəsindən aşağıdadır. Kür, Göyçay və Türyançay çayları rayonun ərazisindən keçir. Zərdab rayonu Ucar dəmir yolu stansiyasından 35 km məsafədədir. Qış və yay otlaqlarının mövcudluğu bütün il boyu heyvandarlığın inkişafı üçün əlverişli şərait yaradır. Sututarları balıq yetişdirilməsi üçün əlverişlidir. Ərazidə neft-qaz yataqları aşkar edilmişdir. Rayonun iqtisadiyyatında kənd təsərrüfatı xüsusi rol oynayır. Kənd təsərrüfatının əsasını pambıqçılıq, taxılçılıq, baramaçılıq, balıqçılıq və heyvandarlıq təşkil edir. Rayonda pambıqtəmizləmə, çörək, asfalt, süd zavodları fəaliyyət göstərir.

Göyçay rayonu Şirvan düzünün şimal hissəsində, Böyük Qafqaz dağlarının ətəklərində yerləşir. Rayon 8 avqust 1930-cu ildə təşkil olunmuşdur.

Rayonun sənayesi əsasən qida məhsullarının, qeyri-metal mineral maddələrin istehsalı, elektrik enerjisi, qaz və suyun paylanması və bölüşdürülməsi sahələri ilə təmsil olunmuşdur. Rayonun iqtisadiyyatında taxılçılıq , meyvəçilik, tərəvəzçilik əsas yer tutur. Bununla yanaşı təsərrüfatlarda pambıq, kartof, bostan, üzüm məhsulları da becərilir. Heyvandarlıqda isə iribuynuzlu maldarlıq və qoyunçuluq aparıcı rol oynayır. Rayonun istifadəsində olan kənd təsərrüfatına yararlı torpaq sahəsi onun ümumi ərazisinin 72,7 faizini təşkil edir. Torpaq islahatı nəticəsində 17,2 min ailə 23,2 min hektar torpaq payına sahib olmuşdur. Meyvə şirələrinin istehsalı üzrə formalaşan Aznar şirkəti Göyçayda 2006-cı ildə yaradılıb. Aznar şirkəti ölkədə “yaşıl istehsal texnologiyasının" tətbiq edildiyi yeganə nar emalı zavodudur.

Mərkəzi Aran iqtisadi rayonuna daxil olan Kürdəmir rayonu mərkəz kimi 1930-cu ildə yaradılmışdır. Rayonun əsas fəaliyyəti bitkiçilik və heyvandarlığı inkişaf etdirmək olmaqla, həmçinin bazar iqtisadiyyatı şəraitinə uyğun olaraq ticarət, xidmət və digər sahələr üzrə kiçik sahibkarlıq fəaliyyətinə geniş yer verilmişdir. Rayonda aqrar islahatların uğurla həyata keçirilməsi, aqrar sahədə sahibkarlığın inkişafı üçün yaradılmış işgüzar şərait və bu sahəyə ardıcıl olaraq göstərilən dövlət dəstəyi nəticəsində kənd təsərrüfatı sahəsində yüksək göstəricilər əldə olunur. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramından irəli gələn əsas vəzifələrdən biri də əhalinin məşğulluğunun

təmin olunması və yeni iş yerlərinin açılması məsələsidir ki, bu istiqamətdə Kürdəmirdə davamlı işlər icra olunur.

Ümumilkdə Mərkəzi Aran İqtisadi rayonu üzrə nəzərdə tutulmuş layihə və tədbirlər bu gün də davam etdirilir.

Mərkəzi Aran elmi tədqiqat
mərkəzinin rəhbəri
V.Mövlayeva